ECAR Erasmus + layihəsi çərçivəsində Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli, bir neçə yerli universitetin rektor, prorektor və digər rəhbər işçilərindən ibarət 30 nəfərlik nümayəndə heyətinin Fransaya səfəri təşkil edilib.

Səfərin məqsədi Fransa Rektorlar Konfransı ilə təcrübə mübadiləsi məqsədli görüşlərin keçirilməsidir.

Belə ki, Fransa Rektorlar Konfransı (CPU) və Fransa Beynəlxalq Təhsil Mərkəzinin (FEİ) təşkilatçılığı ilə həyata keçirilən görüşlərdə Fransa təhsil sistemi və Fransa rektorlar konfransının ali təhsildə rolu, Fransa Rektorlar Konfransının təşkilati strukturu, maliyyələşmə mexanizmi, üzvlük qaydaları, strateji məqsədləri,  beynəlxalq əlaqələri və CPU-nun digər maraqlı tərəfdaşlarla əməkdaşlığı haqqında iştirakçılara ətraflı məlumat verilməsi planlaşdırılır. Səfərin sonunda CPU-nun universitetlərlə qarşılıqlı əməkdaşlığının öyrənilməsi məqsədilə Sarbon Universitetinə səfər də nəzərdə tutulur.

Qeyd edək ki, ECAR Erasmus + Bakı Biznes Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən, Azərbaycanda Rektorlar Konfransının yaradılması məqsədini daşıyan layihədir.